# ÜLKƏR



**Dilsuz MUSA**

*(Əvvəli qəzetimizin 50-ci sayında)*

Həkim olacaqdı, həkimlik adı,
Ona böyük ümid, qol-qanad verdi.
Onu təbrik etdi dostlar, tanışlar,
Təbriklər gəlirdi bir əldən yenə.
Sevinib gülməyin indi yeri var,
Bu da bir bayramdı bayram eşqinə.
Anası sığmırdı heç yerə, göyə,
Sevincin, şadlığın hüdudu yoxdu.
Çox sağ ol, ay qızım, hey deyə-deyə,
Hətta əllərinə həna da yaxdı.
Quş olub göylərə uçmaq istədi,
Atası görmədi heyif bu günü.
Qızını doyunca quçmaq istədi,
Tale qismət etdi ona bu günü.
Fatma xala nəzir-niyaz payladı,
Şirnini, noğulu əsirgəmədi.
ATİ-yə girmişdi bu il övladı,
Arzusu çin oldu... Daha nə dərdi?...

* * *

Tələbə adını daşıyan gündən,
Dəyişdi Ülkərin halı, əhvalı,
Anadan aralı yaşayan gündən,
Oturdu havalı, gəzdi havalı.

Təzə dostlar tapdı, tanışlar tapdı,
Dəyişdi ömrünün mənası bütün.
O təzə dəbləri havada qapdı,
Yadına düşmədi anası bir gün.
Ülkər bəyənmədi kəndi, kəsəyi,
Öz doğma anası yadından çıxdı.
Dar günün dostları, ümid, gərəyi
Ona həqarətlə, nifrətlə baxdı.
Rəngini, ruhunu dəyişdi tamam,
Neçə rəngə düşdü buqələmun tək.
Heç kəsin ağlına gəlməzdi, aman,
Qızcığaz bu qədər çox dəyişəcək.
Xətrinə dəymədi onun bir kərə,
Ona kəm baxanın gözünü oyar.
Ana qərq olmuşdu düşüncələrə:
"Qızını döyməyən dizini döyər."
Belə üsulların mənası varmı,
O ki, ad qazandı adlar içində.
İnsanı döyməklə adam olarmı
Od tutub yanırdı odlar içində.
Kənd əhli yamanca nigaran idi,
Bu acı xəbəri daşımaq çətin.
Anadan çoxusu bədgüman idi,
Bu dərdlə, kədərlə yaşamaq çətin.
Bəzisi anaya təsəlli verdi,
Dərdini, sərini dağıt dedilər.
Bəzisi çıxışı tək bunda gördü,
Qızına bu yoldan qayıt dedilər.

Hərə bir söz dedi Fatma xalaya,
O isə sığındı göz yaşlarına.
İndi nə söyləsin ana balaya
Sanki mil çəkilib baxışlarına.
Bu yandan Ülkərdən xəbərlər gəlir,
Bu yay da o kəndə qayıtmayacaq.
Ananın fəryadı göyə yüksəlir,
O yenə yanında tapılmayacaq.
Ülkər öz işində, öz gücündədir,
Nəyinə gərəkdir yamaqlı bir kənd.
Günləri deyəsən burda xoş keçir,
Onu cəlb eləmir çomaqlı bir kənd.
Bu kəndin başına bir gəl dörd dolan,
Kəndin kənd adı var, şəhərin şəhər.
Anan çox üzülüb, halı pərişan,
Günə gün calama, sənsə, ay Ülkər!
Uşaqlıq çağların bu kənddə keçib,
Bu yerlər səninçün əzizdir hər an.
Hər kəs taleyini bu kənddə seçib,
Sən bu kəndə güvən, kəndə arxalan.
Anan saçlarını ağ-qara hörüb,
Sənlə nəfəs alıb, sənlə ucalıb.
O ağrı-acını çox erkən görüb
İndi haldan düşüb, xeyli qocalıb...

## YENİ HƏYAT

İllər yaşa dolur, biz qocalırıq,
İllər qanad taxıb sehrli quşdan.
Ərköyün oluruq, kövrək oluruq,
Bəzən inciyirik bir sərt baxışdan.
Quş qanadlı illər uçur durmadan,
Yerlərə-göylərə sığmır hikkəsi.
İllər qanadını açır durmadan,
Uzaqdan, yaxından duyulur səsi.
İllərin qoynunda yaşa dolduq biz,
Ömrün mənasını hələ duymadan.
Dünyadan köçürük qoymamış bir iz,
Ömürdən doymadan, gündən doymadan.
Yeni nəfəs verir yeni bir həyat,
Coşur damarında qan cavanların!
Belə yaşayırıq dünyada heyhat,
Həmişə meydanı gen cavanların!
İnstitut illəri arxada qaldı,
Ülkər buranı da "əla" bitirdi.
Ən yaxşı bir yerə təyinat aldı
Həyatda çox şeyi tapdı, itirdi.
Bir anlıq yadına anası düşdü,
Görən neyləyirdi anası indi.
Gör necə tezliklə illər ötüşdü
Yaman xiffət çəkdi, yaman kövrəldi.
Bu illər bir dəfə getmədi kəndə,
Axı, anasının günahı nəydi?
Axı, nə olubdu, belə bir gündə...
Bu fikir qəddini yamanca əydi.
Səfehlik elədi, bəli bir zaman,
Kəndi bəyənmədi, həddini aşdı.
Görən çəkilərmi bu çiskin, duman,
O Fatma anası yadına düşdü.
Ana yer üzündə ən nadir inci,
Unutmaq olarmı həyat vereni.
Ana günlərimin nuru, sevinci,
Bağışla, ay ana, bağışla məni.
Cənnət anaların ayağı altda,
Acı sözü belə şərbət olubdu.
Niyə boynu bükük gəzir elatda,
Bəs niyə gözləri yolda qalıbdı?
Bir ana haqqı var bu yer üzündə,
Bu haqqın önündə baş əyir hamı.
İlahi qüdrət var "Ana" sözündə,
Biz nə tez unutduq bəs bu kəlamı?!
Hikmət xəzinəsi - ana ürəyi,
Bu ürək çox ağrı - acılar gördü.
Odur yer üzünün duzu, çörəyi,
Analar dünyanın şah əsəridi.
Ölçüyə gələrmi ana zəhməti,
Bir günün zəhməti - ömrə bərabər.
Qoruya bildikmi biz ədaləti,
Bax bundan söz açıb yazmağa dəyər.

Ana əllərinin hərarətini,
Unutmaq mümkünmü ömrümüz boyu?!
Ananın bizlərə səxavətinin
Varmı bərabəri, varmı bir tayı?!
Ana Vətən dedik Vətən mülkünə,
Ana kəlməsinin qədrini bilək,
Bu tükənməz ömrün sonsuz eşqinə,
Gülzara çevrilsin hər arzu, dilək.
Analar dəfn edər dərdi ürəkdə,
Hər ağrı-acını çəkməzlər üzə.
Ürəkdə ağlayar, amma gerçəkdə
Xoşbəxt görünərlər, vurmazlar üzə.
Acı həqiqəti anladı Ülkər,
O vaxtdan, vədədən xeyli ötsə də.
Özünü yamanca danladı Ülkər,
Fikirlər içində itib-batsa da.
Bir mətləbə gəldi, qərara gəldi:
Təcili getməli o doğma kəndə.
Dağların başından duman çəkildi,
Tez kəndə yollandı o həmin gündə.
Hələ yavaş-yavaş qaralırdı şər,
Ülkəri bu kəndə çatdırdı maşın.
Yaman yorulmuşdu, dözdü birtəhər,
Əl atıb düzəltdi tez üstün, başın.
Hərə bir söz dedi öz aləmində,
Çaşqınlıq içində qalmışdı hamı.
Nə əcəb görəsən belə bir gündə
Ülkər yada salıb kasıb komanı.

Həqiqət nə qədər acı olsa da
Yaxşıdır çox zaman şirin yalandan.
Ülkərin xəyalı kənddə qalsa da,
Yaman nigarandı öz doğmasından.
Xeyli adam vardı həyətlərində,
Baxışlar kədərli, qəmli görünür.
Bu necə görüşdü, axı, hələ də,
Didələr giryanli, nəmli görünür.
"Olumla "ölüm"ün arasındadı,
Ana çırpınırdı çarpayı üstə.
Ana sayıqlayır, öz hayındadı,
Xeyli vaxt olar ki, yatırdı xəstə.
Ülkər itirmədən vaxtı, vədəni,
Onu oxşayaraq bağrına basdı.
Vaxtında yetirdi ruzigar məni,
Deyib sözlərini yaman tələsdi.
Anam çatdırdı xəstəxanaya,
Özü cərrah oldu öz anasına.
Car çəkdi az qala bütün dünyaya,
Gəl indi, oxucu, Ülkəri qına...
Xeyli sınıxmışdı ana bu vaxtlar,
Xeyli üzülmüşdü, halsızlamışdı.
Dünyanın qəribə təzadları var:
Ana tək qalmışdı, yalqızlamışdı.
Özündə deyildi bu zaman da o,
Çox çətin olsa da nəfəs alırdı.
Hara gedəcəkdi bu dumanda o,
Özünü dumanda, çəndə sanırdı.

Görünmür gözündə həyat eşqi də,
O huşsuz yaşadı günləri bütün.
Lakin qalib gəlib kədərə, dərdə,
Açdı gözlərini nəhayət bir gün...
Ülkəri görüncə gözləri güldü,
Sarıldı boynuna ana əlləri.
Ülkəri görmürdü gör neçə ildi,
Beləcə açdılar bu xoş səhəri.
Qəribə görüşdü... dodaqlar güldü,
Ülkərin əlilə sağaldı ana!
Bunu bilməyən də eşitdi, bildi,
Elə bil ucalıb dağ oldu ana!...

## EPİLOQ

Xeyli vaxt keçibdir artıq o vaxtdan,
Ev-eşiyə dönüb Fatma xala da.
Daha gileylənmir taledən, bəxtdən,
İndi yanındadır Ülkər bala da.
Toyu da olubdur, bir nəvəsi var,
Yarmanca dəcəldir, yamanca şirin.
Nəvənin adını Səlim qoydualr,
Ürəyi yerinə düşdü Ülkərin.
Ülkəri çox yerə dəvət etdilər,
Amma anasını qoyub getmədi.
İnstitut dedilər, şəhər dedilər,
Ata ocağını o tərk etmədi.

Evi təzələdi neçə il olar,
Yarlı-yaraşıqlı bir ev ucaltdı.
Bütün şəraiti, bağ-bağçası var,
Həyət-bacanı da xeyli dirçəltdi.
Adı dolaşırdı ağızda-dildə,
Rayonda ən böyük xəstəxanası.
Çox böyük hörməti vardı bu eldə,
Başı dik gəzirdi Fatma anası.
Şəhərdən gələrdi çox vaxt qonaqlar,
Bəzən toplantılar burda keçərdi.
Burda özgə aləm, özgə busat var,
Bir çoxu yolunu burda seçərdi.
Ömrün salnaməsi bitirmi burda,
İnsan sağlamlığı hər şeydən üstün.
Ülkər həkim kimi bu doğma yurda
Ömrünü-gününü veribdi bütün.
Hippokrat andına üz tutmusuz siz,
Niyə azalmayır bəs bu ölümlər.
Daha da möhtəşəm olsun ölkəmiz,
Hələ yol üstədi, gəlir Səlimlər...
Gəlir ömrü-günü uzatmaq üçün,
Özünü bi yolda məlhəm sananlar.
İnsanı insantək yaşatmaq üçün
Tanrı köməyinə möhtacdı onlar...
Neçə ki, həyat var, siz də varsınız,
Qoymayın od tutub yansın bəşəri.
Sabaha inamsız, bizə yarsınız,
Ey həkim əlləri, həkim əlləri!

*Son*

## OXU, ZÜLFİYYƏ

Sazın, sözün məclisində bulundum,
Nəğmə dolu bir çeşmədə duruldum,
Söhbətində şirinliyə vuruldum,
Nəğmələri xoş təsəlli, Zülfiyyə!
Şan-şöhrəti elə bəlli, Zülfiyyə!
Bu sevginin ürəklərdə yeri var,
Öz əhdinə vəfadardı "Gilənar",
Sən dinəndə çiçək açar gilənar,
Söz çələngi allı-güllü, Zülfiyyə!
Şan-şöhrəti elə bəlli, Zülfiyyə!

Nəğmələrin ətir saçan gül, çiçək,
Sözün-sovun süfrəmizdə duz, çörək,
Telli sazın hələ bizə çox gərək,
Hər kəlməsi mixək, hilli, Zülfiyyə!
Şan-şöhrəti elə bəlli, Zülfiyyə!

Bu ləhcənin, bu avazın öz yeri,
Yaz nəfəsli telli sazın öz yeri,
Bu sənətdə sən özün də bir Pəri,
Məclisləri ozan dilli Zülfiyyə!
Şan-şöhrəti elə bəlli, Zülfiyyə!

Demə Dilsuz bu görüşdən usandı,
Sənət eşqin ürəklərdə qalandı,
Nəğmə ömrün ömürlərə calandı,
Odlar yurdu - bizim elli, Zülfiyyə!
Şan-şöhrəti elə bəlli, Zülfiyyə!

## KƏND YANIR, DƏLİ DARANIR

Pozulmasın o tellərin sığalı,
İşində ol, təki yanan kənd olsun.
Od bürüyüb neçə kəndi, mahalı,
Yurd itirən hansı yurdda bənd olsun?,
Qarabağım qara kösöv olubdu,
Çarpaz dağlı sinələrin sayı yox!
El, obamız gör nə günə qalıbdı,
Sənin kimi ürəksizin tayı yox!
Vətən eşqin bir dumanlı səhərdi,
Bu səhərin bəbəkləri güləmməz.
Vallah sənə bel bağlamaq hədərdi,
Eldən ayrı el dərdini biləmməz.
Bilən bilir nə çəkirik əlindən,
Biganələr sırasında öndəsən.
Aləm yansın, sənsə hələ güzgülən,
Ağ otaqda özün ki, ağ gündəsən.
Nə vecinə yandıran kim, yanan kim,
Yurdsuzların göz yaşları sel olsun.
Bu millətin halal haqqın danan kim,
Səninki bir daraq, bir də tel olsun.
Dünya qopsun deyəcəksən: "Mənə nə!"
Cümlə cahan Sap kül olsun binadan.
Bu daş qəlbin çox çətin ki, isinə,
Çünki belə doğulmusan anadan.

## YATIBDI

Gəzdim bu elləri, çox şeyi gördüm,
Bəzən kimsəsizə təsəlli verdim.
Yenə təzələndi o köhnə dərdim,
Həqiqət altında yalan yatıbdı.
Bazarın nəs gəldi üzün gülərmi?
Bu sirri səninlə kimsə bölərmi.
Yığ görək, qaş-daşı təzə xəbərmi
Qızılın üstündə ilan yatıbdı.
Giley yorğunuyam mən bu yaşımda
Fikirlər dolaşır yenə başımda.
Nə qədər qaçıram durur qarşımda,
Oyanmaq bilməyən vicdan yatıbdı.
Qara bəxtin qara günə qalıbdı,
Bu qovğaya kimlər səni salıbdı.
Nəyin var ki, olanı da alıbdı,
Şaxələnən neçə guman yatıbdı.
Ana ayrı düşməz öz balasından,
Könül şadlanarmı söz yarasından.
Qurtaraq bu dərdin üz qarasından,
Orda hökmü verən zaman yatıbdı...